**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MÖVZU VƏ OBRAZ MÜXTƏLİFLİYİ

İxtisas: 6203.01 – İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Sevinc Qaçay qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Xoreoqrafiya Akademiyasının "Sənətşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Rəna Həbib qızı Abdullayeva**

Rəsmi opponentlər: AMEA-nın müxbir üzvü, sənətşünaslıq doktoru, professor
**Rəna Azər qızı Məmmədova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Elşad Vüqar oğlu Əliyev**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Aysel Elxan qızı Zöhrabova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının bazasında qeydiyyat nömrəsi BED 2.34 Birdəfəlik dissertasiya şurası

Dissertasiya şurasının sədri:

Xalq rəssamı, professor
**Fuad Məmməd Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi:

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri:

sənətşünaslıq doktoru, professor
**Vitaliy Fedoroviç Poznin**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Mövzu və bədii obraz qarşılığı sənətşünaslığın mühüm nəzəri problemlərindən olmuşdur və bu gün də olaraq qalır. Əsəri xarakterizə edən bu iki anlayış təsviri sənətin mühüm vizual göstəricilərindən hesab olunur. Təsviri sənətin məzmun və mahiyyəti, onun bədii-estetik tutumu mövzu və bədii obraz vasitəsilə öz ifadəsini tapır. Mövzu əsərin ideya-bədii istiqamətini, onun məzmununu, qayəsini, süjetini müəyyən edir. Bədii obraz isə kompozisiyanın təşkil olunduğu elementlər məcmusunu ifadə edərək onlara vizual görünüş verir. Bədii obraz təsvir dili vasitəsilə əsərin kompozisiyasını tamamlayır və onun obrazlılığını özündə təcəssüm etdirir.

Müasir Azərbaycan təsviri sənətində bədii obraz ənənə və müasirlik müstəvisində inkişaf edir. Azərbaycan təsviri sənətində bədii obraz şəxsiyyət, milli məzmun və xarakter, rəmzlər, folklor motivləri, təbiət lövhələri və digər əsas komponentlər üzərində qurulmuşdur.

Müstəqillik dövrü Azərbaycan təsviri sənəti çoxcəhətli, rəngarəng inkişaf xüsusiyyətləri ilə diqqəti cəlb edir. Bu dövrdə qrafika və rəngkarlıqda yeni forma və üslublar meydana gəlmişdir. Müstəqilliyin bərpa edilməsi ilə təsviri sənətdə əsaslı dəyişikliklər baş vermiş, yeni bədii-estetik dəyərlər formalaşmışdır. Bu isə, öz növbəsində yeni meyarların, mövzu və üslub xüsusiyyətlərinin meydana çıxmasına səbəb olmuşdur.

Oxşar fikirləri heykəltəraşlıq haqqında da deyə bilərik. Müstəqillik dövründə monumental sənət ölçü etibarilə nisbətən kiçilmiş, lakin ayrı-ayrı əsərlərin sayı çoxalmışdır. Monumental sənətdə bədii əsər-mühit qarşılığı inkişaf etmiş, obraz-landşaft münasibətləri aktivləşmişdir. Həm monumental, həm də dəzgah heykəltəraşlığında yeni mövzular inkişaf etmiş, milli folklora maraq artmış, yeni qəhrəman obrazları yaradılmışdır. Şəhər mühitində (mədəni landşaftda) dekorativ kompozisiyaların rolu artmış, müasir şəhər dizaynının estetik məzmununun formalaşmasında bu tipli əsərlər daha yaxından iştirak etməyə başlamışdır.

Hələ ötən əsrin 70-80-ci illərində təsviri sənətdə bir sıra mütərəqqi yeniliklər baş vermişdi. 60-cılar nəslinin nümayəndələrinin

yaradıcılığına xas olan bu dəyişikliklər rəngkarlıqdakı klassik ideya-bədii xüsusiyyətlərdən xeyli seçilirdi. Fərqli düşüncə tərzi, sənətdə insan amilinin ön plana çəkilməsi, başlıcası isə, milli xarakterin, koloritin və dekorativliyin qabarıq təzahürü sənətə olan müasir baxışların ideya-estetik qaynaqlarından idi. Həmin dövrdə Toğrul Nərimanbəyov, Elbəy Rzaquliyev, Rasim Babayev, Əşrəf Murad, Kamal Əhməd, Cahid Camal, Fərhad Xəlilov və başqalarının yaradıcılığı təsviri sənətdə yeni düşüncə tərzinin əsasını qoydu ki, bunu müstəqillik dövrü bədii-estetik dəyərlərinin təməl daşlarından hesab etmək olar. Bu rəssamlar fərqli bədii üslublara malik olsalar da, onlar müstəqillik dövrü rəngkarlığının mövzu və üslub xüsusiyyətlərinin formalaşmasında mühüm rol oynamışdır. Əlavə edək ki, onların bir çoxunun (Toğrul Nərimanbəyov, Elbəy Rzaquliyev, Rasim Babayev və başqaları) yaradıcılığının yetkin dövrü müstəqilliyin erkən dövrünə təsadüf edir.

Məlumdur ki, müstəqillik dövrü təsviri sənəti üç nəslin yaradıcılığı ilə təmsil olunur ki, bunlar da yaşlı, orta və yeni nəslin təmsilçiləridir. Yaşlı nəsil ənənəvi olaraq klassik üslub tərzinə üstünlük verirdi. O zaman gənc olan müasir orta nəsil daha çox ekzistensial əhvali-ruhiyyəyə meyil edirdi. Həmin dövrün – ötən əsrin 90-cı illərinin çətinlikləri ekzistensial görüşlərin formalaşmasına şərait yaratmışdı. Nəhayət, müasir gənc rəssamlar nəsli artıq dövlətçilik, azərbaycançılıq ideologiyası ruhunda əsərlər yaratmağa üstünlük verirlər.

İstər müstəqillik illərinin erkən mərhələsində (ötən əsrin 90-cı illərində), istərsə də 2000-ci illərdə rəssamlar tərəfindən bir çox yaddaqalan əsərlər yaradılmış, yeni rəssamlar nəsli formalaşmışdır. Müxtəlif nəsilləri təmsil edən və fərqli üslublarda çalışan rəssamların sənətə olan baxışları müasir incəsənətin geniş və çoxşaxəli olmasını əyani şəkildə əks etdirir. Tədqiqat işində bir çox rəssamların yaradıcılığına müraciət edilmiş, onların əsərləri təhlilə cəlb olunmuşdur. Bununla da müstəqillik dövründə mövzu və bədii üslubun ümumi inkişaf tendensiyaları müəyyən edilmişdir.

Tədqiqat işində Tahir Salahov, Toğrul Nərimanbəyov, Oqtay Sadıqzadə, Rasim Babayev, Cavad Mircavadov, Kamal Əhməd, Gennadi Brijatyuk, eləcə də Çingiz Fərzəliyev, Sakit Məmmədov, Əşrəf Heybətov, Altay Sadıqzadə, Ənvər Əskərov, Qurban Məlikov,

Vüqar Əli, Rza Avşarov, Əşrəf Qafarov və başqalarının yaradıcılığı nəzərdən keçirilir. Tədqiqat işində Ömər Eldarov, Natiq Əliyev, Fuad Salayev, Salxab Məmmədov, Fazil Nəcəfov, Əli İbadullayev, İmran Mehdiyev kimi heykəltəraşların yaradıcılığı araşdırılmış, müstəqillik dövrü Azərbaycan heykəltəraşlıq sənətinin inkişafında onların rolu nəzərdən keçirilmişdir. Tədqiqat işində rəssam və heykəltəraşların yaradıcılıq xüsusiyyətlərini öyrənməklə müasir dövrdə təsviri sənətin inkişaf dinamikası, burada özünü büruzə verən mövzu, obraz, forma və üslub müxtəlifliyi izlənilmiş, təhlil edilmiş, bədii yaradıcılığın inkişaf vektorları, bədii yaradıcılığın aktual problemləri diqqətə çatdırılmışdır.

Müasir təsviri sənətdə mövzunun bədii-estetik və tərbiyəvi əhəmiyyəti böyükdür. Müasir təsviri sənətdə klassik mövzular müstəqillik müstəvisində inkişaf etdirilmiş, yeni mövzular meydana çıxmışdır. Çağdaş təsviri sənətdə müstəqillik, dövlətçilik ideyalarını əks etdirən mövzular geniş yayılmışdır. Bunun tərkib hissəsi olan Qarabağ zəfər savaşı mövzusuna əksər rəssamlar, xüsusən gənclər həvəslə müraciət edirlər.

Təsviri sənətdə obraz və mövzu problemi müxtəlif tədqiqatçılar tərəfindən öyrənilmişdir. Nəzəri xarakter daşıyan bu mövzu müxtəlif dövrlərdə ayrı-ayrı tədqiqatçıların diqqətini cəlb etmişdir. Vaxtilə sovet sənətşünaslığında bu problem estetik müstəvidə xeyli geniş surətdə öyrənilmişdi. V.Razunmı[1], A.Zis[2], Y.Savostyanov[3] və başqalarının yaradıcılığında incəsənətdə bədii obraz problemi öz əhatəli təhlilini tapmışdır. Qeyd etmək vacibdir ki, bədii obraz və mövzu problemi ədəbiyyatşünaslıqda daha dərindən və sistemli şəkildə tədqiq olunmuşdur. Bu, həm də Azərbaycan ədəbiyyatşünaslığına aiddir. Azərbaycan sənətşünaslığında nəzəri problemlər S.Dadaşov, N.Həbibov, Ə.Salamzadə, R.Abdullayeva,

---

[1] Разумный, В.А. Проблема типического в эстетике / В.А.Разумный. - Москва: Госполитиздат. – 1955. – 193 с.

[2] Методологические проблемы художественной критики / отв. ред. А.Я.Зись. Москва: Искусство. – 1987. – 334 с.

[3]Савостьянов, Е.И. Эстетическая природа советского изобразительного искусства / Е.И.Савостьянов. - Москва: Изобразительное искусство. – 1983. – 302 с.

T.İbrahimov, T.Bayramov, G.Mirzə və başqaları tərəfindən öyrənilmişdir.

Qeyd olunmalıdır ki, incəsənət tarixi ilə müqayisədə incəsənət nəzəriyyəsi Azərbaycan sənətşünaslığında xeyli az öyrənilmişdir. Bu sahədə hələ də ciddi boşluqlar mövcuddur. Nəzəri problemlər Ə.Salamzadənin "Azərbaycan sənətşünaslığı. XX əsr"[4], R.Abdullayevanın "İnformasiya mədəniyyətində bədii üslub problemi"[5], T.Bayramovun "İncəsənətin tipologiyası və mədəniyyətlərin dialoqu ənənə problemi kontekstində"[6] monoqrafiyalarında daha geniş öyrənilmişdir. Bundan başqa R.Məmmədovanın[7], N.Mehdinin[8], S.Sadıqovanın[9], T.İbrahimovun[10], S. Mirbağırzadənin[11], G.Mirzənin[12] və başqalarının elmi əsərlərində bu problem müəyyən dərəcədə öz əksini tapmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müstəqillik dövrü Azərbaycan təsviri sənəti, buradakı obraz və mövzu müxtəlifliyidir. Tədqiqatın predmetini müxtəlif rəssamların yaradıcılığı, ayrı-ayrı əsərlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müstəqillik dövründə Azərbaycan rəngkarlığında yeni mövzu və üslub xüsusiyyətlərinin araşdırılmasıdır. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

---

[4] Саламзаде, Э.А. Искусствознание Азербайджана: XX век / Э.А.Саламзаде. - Баку: Элм. – 2001. – 352 с.

[5] Абдуллаева Р.Г. Проблема художественного стиля в информационной культуре / Р.Г.Абдуллаева. - Баку: Элм. – 2003. – 256 с.

[6] Байрамов, Т.Р. Типология искусства и диалог культур в контексте проблемы традиции / Т.Р.Байрамов. - Баку: Элм. – 2010. – 232 с.

[7] Məmmədova, R.A. Ulu öndər Heydər Əliyev və türk mədəniyyətinin birliyi // - Bakı: Müqayisəli sənətşünaslıq – 2023. - s. 22-26.

[8] Mehdi, Niyazi. Sənətin arxitektonikası / Niyazi Mehdi. - Bakı: Qanun. – 2007. - 343 s.

[9] Sadıqova, S.Y. XIV-XVII əsr Azərbaycan miniatüründə hərbi geyim və silah / - Bakı: Qobustan, – 1988. № 3, – s. 18-21.

[10] İbrahimov T. İ. Təsviri incəsənətin nəzəriyyəsi. Dərslik / T.İ.İbrahimov. - Bakı: - 2016. – 126 s.

[11] Mir-Bağırzadə, S.A. Etika və estetika. Dərslik. / S.A.Mirbağırzadə. – Bakı: Füyuzat, – 2022. – 160 s.

[12] Oqtay Sadıqzadə. Sərvət. // tərt. ed. G.Mirzə. – Bakı: Şərq-Qərb, – 2013. – 104 s.

- Müstəqillik dövrü Azərbaycan təsviri sənətinin ümumi inkişaf dinamıkasının nəzərdən keçirilməsi;
- Bu dövrdə sənətin ideya-bədii mündəricəsində baş vermiş akseoloji dəyişikliklərin aşkar edilməsi;
- Təsviri sənətdə mövzu probleminin müasirlik müstəvisində inkişaf etməsinin və istiqamətlərinin öyrənilməsi;
- Mövzunun və süjetin müəyyən edilməsində rəssamın üslubunun, dünyagörüşünün təsirinin qiymətləndirilməsi;
- Bədii obrazın forma və üslub xüsusiyyətlərinin müəyyən edilməsi;
- Bədii obrazda şəxsiyyət və təbiət fenomeninin təhlili;
- Bədii obrazın əks etdirilməsində mövzunun rolu və əhəmiyyətinin əks etdirilməsi;
- Bədii üslubun inkişaf tendensiyalarının izlənilməsi, onun tarixi-mədəni qaynaqlarının əks etdirilməsi və əsaslandırılması;
- Müxtəlif nəsilləri (yaşlı, orta və gənc) təmsil edən rəssamların yaradıcılığının təhlil edilməsi və müqayisəsi.

Qeyd olunan bu vəzifələri həll etmək məqsədilə tədqiqat işində ana problem (mövzu və üslub) tarix və müasirlik müstəvisində nəzərdən keçirilmiş, müstəqillik dövrü Azərbaycan rəngkarlığında özünü büruzə verən mili abstrakt sənət və rəmzi-dekorativ üslub bir-biri ilə müqayisə edilmişdir. Əlbəttə ki, bu müqayisə müxtəlif rəssamların yaradıcılığı nümunəsində gerçəkləşdirilib.

**Tədqiqat metodları.** Tədqiqatda tarixi və müqayisəli sənətşünaslıq metodlarından istifadə edilmişdir. Tarixi metod problemin tarixi ənənəsinin əsaslandırılması üçün vacibdir. Ötən əsrin 70-80-ci illərində baş verən bədii proseslər müstəqillik dövrü təsviri sənətinin formalaşmasına bilavasitə təsir göstərmişdir. Bu baxımdan tarixi müqayisə metodu elmi problemin həli üçün böyük əhəmiyyət daşıyır. Müqayisəli sənətşünaslıq metodu obraz və mövzu qarşılığının öyrənilməsi üçün əhəmiyyətlidir. Müqayisəli sənətşünaslıq metodu rəssam yaradıcılığını, bədii üslubu və mövzuları müqayisə edərək önlərin fərqli və oxşar cəhətlərini üzə çıxarır, bununla da təsviri sənətin inkişaf dinamikasının xüsusiyyətlərini müəyyən edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Dissertasiyada müasir Azərbaycan təsviri sənətində obraz və mövzu probleminin qarşılıqlı münasibətləri nəzərdən keçirilmişdir;

- Bədii obrazın şəxsiyyət, təbiət və tematik xüsusiyyətləri müəyyən edilmişdir;

- Azərbaycan təsviri sənətində portret janrının müasir inkişaf tendensiyaları müəyyən edilmişdir;

- Təsviri sənədə mif-folklor təfəkkürünün vizual informasiya dili və onun bədii kodu əks etdirilmişdir;

- Mif-folklor təfəkkürünün tarixi və bədii aspektləri araşdırılmış, onun vizual təcəssüm xüsusiyyətləri rəssam yaradıcılığının təhlili vasitəsilə öyrənilmişdir;

- Müstəqillik dövrü Azərbaycan təsviri sənətində obrazın çoxmüstəvili xarakteri araşdırılmışdır;

- Müasir təsviri sənətdə vətənpərvərlik mövzusu şəxsiyyət və obraz müstəvisində təhlil edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində ilk dəfə olaraq müasir Azərbaycan təsviri sənətində obraz və mövzu münasibətləri sistemli şəkildə öyrənilmişdir. İlk dəfə olaraq obrazın üç kateqoriyası – şəxsiyyət, təbiət və landşaft kateqoriyaları ayırd edilmiş, onların rəssam yaradıcılığında təzahür edən xarakterik cəhətləri əsaslandırılmışdır. Bir sıra rəssamların əsərlərindən ilk dəfədir ki, nəzəri müddəaların əsaslandırılması üçün istifadə edilmişdir. İlk dəfə olaraq obrazın müxtəlif kateqoriyalarının (təbiət və landşaft) bir əsərdə təzahürü obraz sintezi kimi dəyərləndirilmiş, ümumiləşdirilmiş və fərdi obraz tiplərinə aydınlıq gətirilmişdir. Bir çox əsərlər ilk dəfədir ki, təhlil olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələrindən mədəniyyət və incəsənət profilli ali məktəblərdə tədris vəsaiti kimi istifadə etmək olar. Eyni zamanda tədqiqat işindən müasir Azərbaycan təsviri sənətinin nəzəri problemlərini araşdıran tədqiqatçılar da istifadə edə bilərlər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu üzrə iddiaçının biri xaricdə olmaqla, on məqaləsi çap edilmişdir. Həmçinin iddiaçı dissertasiya mövzusunda üçü xaricdə olmaqla doqquz elmi konfransda mövzu üzrə məruzə ilə çıxış etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Bakı Xoreoqrafiya Akademiyasının "Sənətşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, altı paraqraf, on beş bənd, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavədən ibarətdir. O cümlədən: Giriş – 11.672, 1.1. – 28.635, 1.2. – 31.871, 2.1. – 52.008, 2.2. – 31.197, 3.1. – 49.171, 3.2. – 37.802, nəticə – 6.144, birlikdə – 248.500 işarədən ibarətdir. Əlavəyə 188 şəkil daxil edilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **I Fəsli "Müstəqillik ərəfəsində təsviri sənətdə yeni obraz, mövzu və ideyaların formalaşması"** - iki paraqrafdan ibarətdir. Birinci paraqraf **"XX əsrin 70-80-ci illərində təsviri sənətdə milli düşüncənin erkən bədii-estetik qaynaqları"** adlanır. **"Müstəqillikdən öncə təsviri sənətdə fərqli baxış və üslubların formalaşması"** adlanan **birinci bənddə** qeyd olunur ki, müstəqillik dövrü Azərbaycan təsviri sənəti müxtəlif bədii təmayüllər, yaradıcılıq axtarışları, bədii üslublarla zəngindir. Hələ ötən əsrin 70-80-ci illərində Azərbaycan təsviri sənətində novatorçu meyillərin və sənətə fərqli baxışların konsolidasiyası, yenidən formalaşması prosesi gedirdi. Əsasən "60-cılar nəsli"nin xidmətləri olan bu dəyişikliklər bədii yaradıcılıqda xeyli sonra meydana çıxacaq müstəqillik ideyalarının, sənətə olan yeni baxışların ilkin əsasını hazırladı. Həmin dövrdə fəaliyyət göstərən, sənətdə öz yolu ilə getməyə çalışan rəssamlar – Tahir Salahov, Toğrul Nərimanbəyov, Elbəy Rzaquliyev, Rasim Babayev, Elmira Şahtaxtinskaya, Nadir Zeynalov, Baba Əliyev, Fərhad Xəlilov, həmçinin Cahid Camal, Kamal Əhməd, Mircavad Cavadov, Əşrəf Muradov və başqaları yeni ideyaları öz yaradıcılığında daha əhatəli rakursda əks etdirməyə başladılar. Bu proses 80-ci illərin sonlarından etibarən daha intensiv xarakter aldı, mədəni mühitin aparıcı ideya-bədii əsasına çevrildi.

Bu sırada Xalq rəssamı Tahir Salahovun yaradıcılığı xüsusilə diqqət çəkir. Tahir Salahov şübhəsiz ki, böyük rəssamdır, həm də mahir portretçidir.[13] Yaradıcılığının böyük bir hissəsi portret janrına

[13] Алиева С.Г. Критика и анализ творчества Таира Салахова в советском и русском искусствоведении. Cənubi Qafqaz tədqiqatlari: Mövcud vəziyyət, problemlər və perspektivlər./ AMEA Qafqazşünaslıq İnstitutu. 23 oktyabr 2024.

aiddir. O, çoxlu ayda, həm də ən müxtəlif insanların portretlərini çəkib. *"İstedadın xarakteri baxımından onu böyük keyfiyyətləri olan şəxsiyyət maraqlandırır, o, görkəmli insanların – Qarayev, Əmirov, Sabir, Şostakoviç, Rostropoviç, Rauşenberq, Dali və Güssenin portretlərini çəkir, maraqlı və zərif qadınların, sevdiyi insanların simalarını təsvir edir".*[14]

Tahir Salahov həm Sovet dönəmində, həm də müstəqilik illərində Bakı-Abşeron tipli mənzərələrin mükəmməl nümunələrini yaratmışdır. *"Böyük fırça ustası hələ sovet hakimiyyəti illərində bəlkə də rəssamlıq sənəti üçün təsəvvür edilməyən çətin mövzularla həyatın görünməyən və ya az görünən cəhətlərini tünd boyalarla sənətdə ifadə etmək vəzifəsini ciddi bir iradə ilə həyata keçirmişdir".*[15]

Müasir Azərbaycan təsviri sənətinin inkişafında Xalq rəssamı Fərhad Xəlilovun yaradıcılığının böyük rolu olduğu hər kəsə bəllidir. Zənnimizcə, burada mühüm olan postmodernizmin ardıcıl inkişaf dinamikasının təcəssümüdür. Başqa sözlə, Fərhad Xəlilov öz yaradıcılığında bir mərhələdən digərinə sürətli keçid etməklə ümumən Azərbaycan incəsənətində postmodernizmin inkişafını fərdiyyət nümunəsində göz önündə sanki canlandırmış olur, bu inkişafın, keçidlərin zaman və məkanda kompakt modelini yaradır.

**İkinci bənd "Milli təfəkkürün formalaşmasında portret janrının rolu" adlanır.** Burada göstərilir ki, təsviri sənətdə milli təfəkkürün inkişaf etməsində portret janrının xüsusi rolu vardır. Məhz portret vasitəsilə obrazın xarakterini, daxili aləmini, əhvali-ruhiyyəsini dolğun əks etdirmək mümkündür.

Bütün tarixi dövrlərdə bədii obrazın inkişafında portret janrı mühüm rol oynayıb. Bu janr Azərbaycan təsviri sənətində daha çox realist təsviri sənətin formalaşdığı dövrdə - XIX əsrin sonu – XX əsrin əvvəllərində inkişafa qədəm qoymuşdur. Göründüyü kimi, tarixən portret janrının təşəkkül tapması realist təsviri sənətin inkişafı ilə bağlıdır. Portret janrı XX əsrin 50-60-cı illərində xüsusilə inkişaf

---

[14] Tahir Salahov. Sərvət // tərt. ed. T.Əfəndiyev, G.Qacar. – Bakı: Şərq-Qərb, – 2013. – s. 43-44.

[15] Tahir Salahov-90. Yaradıcılığının əsas mərhələləri (kollektiv nəşr). Bakı, 2019. – s. 5.

etmiş, müstəqillik dövrü təsviri sənətində yeni məzmun və müasir bədii formalar kəsb etmişdir.

**Birinci fəslin 2 paraqrafı "Erkən müstəqillik dövründə abstrakt təfəkkür: postmodern diskursu və mövzu müxtəlifliyi"** adlanır. Burada qeyd olunan mərhələdə yeni sənət axtarışları 60-cılar nəslinin yaradıcılığı timsalında tədqiq edilir. "**Fərqli sənət axtarışları abstrakt sənət müstəvisində"** adlı **birinci bənddə** 60-cılar nəslinin xarakterik xüsusiyyətlərindən biri "dissident" sənətkarların meydana çıxması və uzun müddət cəmiyyətdə özünü təsdiq üçün çarpışması əks etdirilmişdir. Kamal Əhməd, Cavad Mircavadov, Əşrəf Murad, heykəltəraş Fazil Nəcəfov, hətta digərləri ilə müqayisədə daha çox populyarlıq qazanmış Rasim Babayev dissidentlər siyahisinda idilər.

Kamal Əhməd Azərbaycan incəsənətini öz qara-qırmızı palitrası ilə zənginləşdirən bənzərsiz rəssamlardan olmuşdur. Onun yaradıcılığı milli simvolikanı yeni yaradıcılıq səviyyəsinə qaldırdı və milli sənəti dünya qarşısında tamamilə yeni müstəvidə təqdim etdi. Lakin o, bunun üçün uzun illər mübarizə aparmalı oldu. *"Öz bioqrafiyasında o, yazırdı: "Beş ildir ki, fərdi sərgi keçirmək üçün çalışıram. Dəfələrlə Azərbaycan Rəssamlar İttifaqına, Azərbaycan Mədəniyyət nazirliyinə və Mərkəzi Komitəsinə müraciət etmişəm. Amma nəticəsiz..." Onun fərdi sərgisi yalnız 1987-ci ildə keçiriləcək, 1992-ci ildə isə rəssam artıq dünyasını dəyişəcək".*[16]

Öz sənəti ilə milli simvolikanı ekspressiv sənəti ilə zənginləşdirən rəssamlardan biri də Cavad Mircavadovdur. Onun yaradıcılığı XX əsrin son dövrü Azərbaycan təsviri sənətinə bir zənginlik, magik və rəmzi təsvirlərlə zəngin olan kolorit bolluğu gətirmişdir.

**İkinci bənd "Abstrakt təfəkkürdə dekorativlik. Milli və transmilli sənət görüşləri"** adlanır. Burada əsas təhlil obyekti kimi abstrakt təfəkkürdə dekorativlik xüsusiyyətləri çıxış edir. Qeyd olunur ki, Xalq rəssamı Siruz Mirzəzadənin dəst-xətti dekorativliyi və zəngin bəzək motivləri ilə diqqəti cəlb edir. Rəssam əksər tablolarında işıq-kölgədən imtina edərək kompozisiyanı başdan-başa kiçik bəzək motivləri, quramalar, ləçəklərlə bəzəyir. Onun rəsmləri quruluşuna,

---

[16] Kamal Əhməd. Sərvət (mətnin müəllifi Dilarə Vahabova) – Bakı: "Şərq-Qərb", 2013.- s. 8.

rəng həllinə görə məşhur Avstriya simvolist rəssamı Qustav Klimtin tablolarını xatırladır.

Siruz Mirzəzadənin “Lampa işığında” adlı əsərində yer alan lampa əslində rəmzi xarakter daşıyır. Kompozisiyanın mərkəzində ənənəvi çıraq – lampa təsvir edilib. Bütün digər detallar onun ətrafında qurulub. Əsərdə iki qırmızı geyimli qadın obrazı əks olunub. Onlar lampanın hər iki tərəfində əyləşərək söhbət edirlər. Əlbəttə, rəssam bu qadınları lampa olmadan da təsvir edə bilərdi. Lakin lampanın kompozisiyaya daxil edilməsi və onun mərkəzində yerləşdirilməsi bu ənənəvi məişət əşyasına rəmzi məna verir. Bu cəhət əsərin adında da əks olunub. Əsərin rəng həllində tünd kolorit üstündür. Qırmızı geyimli qadınlar əsasən yaşıl, qismən boz neytral fonda təsvir ediliblər. Tünd fonda lampa daha yaxşı nəzərə çarpır və kompozisiyanın rəmzi mahiyyətini daha da qüvvətləndirir.

Azərbaycan təsviri sənətində modern sənəti daha çox 90-cı illərdə yayılmışdı. Həmin dövrdə məlum proseslərin təsiri altında cəmiyyətdə kök salmış ekzistensial əhvali-ruhiyyə təsviri sənətdə qərbsayağı abstrakt meyillərin yayılmasına yardım verirdi. Vaxtilə sovet cəmiyyətində hökm sürmüş “dəmir pərdə”nin götürülməsi və müasir dünya avanqardı ilə qəfil tanışlıq da öz növbəsində, qərb yönümlü modern əhvali-ruhiyyənin incəsənətdə özünü büruzə verməsinə şərait yaradırdı. Həmin dövrdə Siruz Mirzəzadə, Teymur Daimi, Yusif Mirzə, Vüqar Əli, Ənvər Əskərov və başqa rəssamlar qərb sənəti ruhunda avanqard-abstrakt əsərlər yaradırdılar. Tədricən (2000-ci illərdə) onların əksəriyyəti milli məzmun və koloritin üstün olduğu formalara keçdilər. Lakin bir qismi 90-cı illərdə formalaşmış ənənəyə sadiq qaldı və qərb incəsənətinə xas olan avanqard tipli əsərlər yaratmaqda davam etdi.

Dissertasiyanın **II Fəsli – “Təsviri sənətdə forma və üslub axtarışları: real və irreal təsəvvürlərin bədii təzahür formaları”** – iki paraqrafı özündə birləşdirir. **“Bədii obraz tarixi-qəhrəmanlıq və mədəni-ədəbi şəxsiyyət kontekstində”** adlanan **birinci paraqraf** üç bənddən ibarətdir. “**Tarixi qəhrəman və hökmdar obrazları”** adlanan **birinci bənddə** qəhrəmanlıq mövzusu ön planda çıxış edir. İddiaçı vurğulayır ki, tarixi-qəhrəmanlıq janrında klassik və müasir incəsənət arasında sıx varislik əlaqələri mövcuddur. Ötən əsrin 30-60-cı illərində Əzim Əzimzadə, Qəzənfər Xalıqov, Tağı Tağıyev, Kazım

Kazımzadə, Səttar Bəhlulzadə, Mikaylıl Abdullayev, Sadıq Şərifzadə və başqaları tərəfindən əsası qoyulan tarixi-qəhrəmanlıq mövzusu müstəqillik dövründə Nəcəfqulu İsmayılov, Altay Hacıyev, Rza Avşarov, Əjdər Qafarov, Faiq Abdullayev tərəfindən davam və inkişaf etdirilmişdir.

Tarixi-qəhrəmanlıq mövzusunun inkişafında Xalq rəssamı Altay Hacıyevin böyük rolu olmuşdur. Altay Hacıyev Azərbaycan hökmdarlarının silsilə portretlərini yaratmış ilk rəssamdır. Bu sırada Tomiris, Eldəgiz Atabəy, Uzun Həsən, Sara Xatun, Fətəli xan və başqalarının obrazları diqqəti xüsusilə cəlb edir.

**İkinci bənd "Ədəbi şəxsiyyət obrazları: ənənə və müasirlik"** adlanır. Burada bədii obraz problemi ədəbi sima kontekstində nəzərdən keçirilir. Bu sırada mütəfəkkir şair Nizami Gəncəvinin bədii obrazı diqqəti daha çox cəlb edir.

Müstəqillik dövründə Nizami mövzusu aktuallığını və populyarlığını itirməmişdir. Müstəqilliyə qovuşduğumuz son 30 ildən artıq müddətdə bu mövzuya maraq nəinki azalmamış, əksinə, daha da çoxalmışdır. Azərbaycan rəssamlarının həm yaşlı və orta, həm də gənc nəsli Nizami mövzusuna həvəslə müraciət edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ili Nizami ili elan etməsi bu mövzuya marağın daha da artmasına səbəb olmuşdur.

Nizami mövzusu hələ müstəqilliyin ilk illərindən diqqət mərkəzində olmuşdur. Müstəqillik illərində istedadlı fırça ustalarından Oqtay Sadıqzadə, Elçin Aslanov, İsmayıl Məmmədov, Elşən Hacızadə, Fəxrəddin Əli, Səyyad Bayramov və başqaları Nizaminin bədii obrazını yaratmışlar.[17] Əvvəllərdə olduğu kimi, şairin ikonoqrafiyasının, başqa sözlə təsbit edilmiş surətinin əsasında Qəzənfər Xalıqovun 1940-cı ildə yaratdığı və Nizami obrazı müsabiqəsinin qalibi olan Nizami portreti dayanır. Həm sovet dönəmində, həm də müstəqillik illərində rəssamlar Nizamı obrazını yaradarkən bir qayda olaraq həmin ikonoqrafiyaya müraciət edirlər.

[17] Əliyeva S.Q. Müstəqillik dövrü Azərbaycan rəssamlarının yaradıcılığında Nizami obrazı // - Bakı: Bakı Xoreoqrafiya Akademiyası, Sənət akademiyası – № 2 (17) 2022. – s. 66-67.

Yaradığı obrazlar içərisində şairə Xurşidbanu Natəvanın surəti xüsusi yer tutur. Natəvan obrazı Azərbaycan təsviri sənətində geniş yayılmış surətlərdən biridir. Hələ ötən əsrin 90-cı illərində Xalq rəssamı Altay Hacıyev Natəvanın lirik səpkidə bir neçə portretini yaratmışdı. Bu portretlərdə xan qızının surəti realist təsvir vasitələrindən daha çox şərti-simvolik üslubda öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, Altay Hacıyev Azərbaycan tarixində mühüm yer tutan, taleyüklü hadisələrdə əhəmiyyətli rol oynaşan qadınların silsilə obrazlarının yaradıcısıdır. Onların içərisində Natəvanın da xüsusi yeri vardır. Həm də digər qadın obrazlarından fərqli olaraq rəssam Natəvan obrazına bir neçə dəfə müraciət edib. O, Natəvan obrazında nəcib Azərbaycan qadınına xas olan əlamətləri əks etdirməyə çalışıb. Əsərlərindən birində Altay Hacıyev Natəvanı romantik tərzdə, yaxın planda təsvir edib.

**Üçüncü bənd "Tahir Salahovun yaradıcılığında fərqli obraz tipləri"** adlanır. Bədii obraz və mövzu problemi Xalq rəssamı Tahir Salahovun yaradıcılığında özünün yeni təfsir formasını tapmışdır. Rəssam həm portret, həm də digər janrlarda bədii obrazın özünəməxsus nümunələrini yaratmışdır. Rəssamın yaratdığı surətlər milli və transmilli xarakter daşıyır.

Salahovun xarici tematikada yaratdığı maraqlı portretlərindən biri, şübhəsiz ki, məşhur Amerika rəssamı Robert Rauşenberqin portretidir. Salahov Rauşenberqi qapı çərçivəsində dayanıb tamaşaçıya baxaraq gülümsəyərkən təsvir edib. Rauşenberq demək olar ki, bütün boyu uzunu təsvir edilib, yalnız ayaqlarının aşağı hissəsi kompozisiyaya "sığışmayıb". Təsvir olunan amerikalı rəssam sol əlini qapıya söykəmiş, qurşağı bərabərində tutduğu sağ əlində stəkan saxlamışdır. Onun əynində iri damaları olan sadə göy köynək, boz-qara şalvar vardır. Rauşenberqin üzündəki səmimi təbəssüm olduqca realist və həyati təsir bağışlayır.[18]

**İkinci fəslin ikinci paraqrafı "Rəmzlər və mif-folklor yaddaşının tarixi-bədii aspektləri"** adlanır. Bu paraqrafda mövzu və obraz qarşılığı mif-folklor yaddaşı müstəvisində təhlilə cəlb olunmuşdur. Paraqraf iki bənddən ibarətdir. Birinci bənd -

---

[18] Əliyeva S.Q. Tahir Salahov-Robert Rauşenberq: fərqli üslublar, oxşar talelər // - Bakı: Mədəniyyət dünyası. ADMİU - XXXX buraxılış. 2021 – s. 77-79.

“**Dekorativ üslub və folklorda rəmzlər”** adlanır. Burada qeyd olunur ki, bir sıra hallarda rəmzlər milli məzmunu əks etdirməklə əsasən abstrakt və dekorativ formalarda təzahür edir. Bu sırada hissi-assosiativ və landşaft-mənzərə tipli kompozisiyalar daha geniş rəmzi məzmuna malikdir. Həmin rəmzlər predmet, rəng, ovqat və s. vasitəsilə yaradılır.

Rəmzlər Xalq rəssamları Arif Əzizin və Siruz Mirzəzadənin son dövr yaradıcılığında xüsusilə inkişaf etmişdir. Bu, daha çox tematik mənzərə tipli əsərlərdə özünü büruzə verir. Görünüşcə rəmzi xarakter daşıyan tematik mənzərələrdə əsasən landşaftın kiçik bir hissəsi əhatə olunmaqla ətraf mühit və təbiət haqqında narrativ təsəvvür formalaşdırılır. Arif Əzizin “Qobustan”, “Qala kəndi”, “Qum fırtınası”, “Abşeron ritmləri” tipli mənzərələrində məzmun bədii motivdən daha çox onun yaratdığı vizual həndəsi formalar, bəyaz naxış və ştrixlər vasitəsilə tamaşaçıya çatdırılır. Bu, dekorativliyin Arif Əzizin yaradıcılığına xas olan formasıdır.

Müasir Azərbaycan rəngkarlığında yaradıcılığı mif-yaddaş təfəkkürü ilə sıx bağlı olan rəssamlar içərisində Rasim Babayev müstəsna yer tutur. Yaradıcılığının erkən mərhələsində o, daha çox mənzərə tematik janrlarında əsərlər yaratmışdır. Sonralar, yaradıcılığının yetkin dövrünə rəssam folklor surətləri və mif yaddaşının təcəssümünə meyil etdi. Rəssam öz tablolarını klassik şərq incəsənəti üslubunda, ön və arxa plan, işıq-kölgə olmadan yaratmışdır ki, bu da onların milli xarakterini daha da qüvvətəndirmişdir. *“O, ürəyi ilə yaşayır və düşünürdü, bu dünyanı yalnız qavrayıcı, təhliledici, reaksiyaverici və qurucu mərkəz olan qəlbi ilə qəbul edirdi. O, öz tablolarını ürəyi ilə çəkirdi. Ona görə də əsərləri bu qədər şiddətli, şən, enerjili, əfsanəvi, parlaq, rəngli, əzabkeş və qızğındır. Bu tablolarda başlıca element –səmimilik, arxayınlıq, dünyanın gözəlliyinin qavranılması mövcuddur”.*[19]

Azərbaycan təsviri sənətində folklor mövzusuna bir çox rəssamlar müraciət etmişlər. Onlardan Mikayıl Abdullayev, Rasim Babayev, Arif Hüseynov, Siruz Mirzəzadə, Əşrəf Heybətov, Vüqar

---

[19] Rasim Babayev. Sərvət (mətnin müəllifi G.Qacar). Bakı: Şərq-Qərb, 2013. - s. 54.

Əli, Zakir Hüseynov, Günay Mehdizadə, Əli Şəmsi və bir çox başqalarının adını çəkmək olar. [20]

Folklor mövzusunda rəngarəng əsərlər yaradan fırça ustaları içərisində Xalq rəssamı Arif Hüseynov xüsusilə seçilir. Rəssamın təsvir dili sadə və yığcamdır. Onun əsərlərində milli xarakteri dolğun əks etdirən zəngin ştrixlər vardır. Arif Hüseynovun 2000-ci illərdə yaratdığı "Azərbaycan nağılları" silsiləsi maraq doğurur. Bu silsiləyə xeyli sayda rəsm əsəri daxildir. Həmin silsilədə Azərbaycan nağıllarından epizodlar öz əksini tapır.

2000-ci illərdən başlayaraq müasir avanqard sənətdə milli üslub ön plana keçdi. Bu üslub özünü milli forma və atributlarda, məna və məzmunda, Azərbaycan rəngkarlığına xas olan əlvan, isti rəng çalarlarında büruzə verirdi. Həmin illərdə orta və gənc nəslin nümayəndələrindən Ağəli İbrahimov, Siruz Mirzəzadə, Qəyyur Yunus, Nazim Məmmədov, Altay Sadıqzadə, Rəşad Mehdiyev, Rəşad Ələkbərov, İlqar Əkbərov, Yusif Mirzə, Orxan Hüseynov və başqaları bu üslubda əsərlər yaradırdılar və çoxu indi də yaratmaqda davam edirlər. "Yeni Abşeron" avanqard məktəbinin layiqli təmsilçisi Zakir Hüseynovun sənət baxışları məhz belə bir mühitdə formalaşmışdı.

Zakir Hüseynovun yaradıcılığında mistik dərviş obrazı mühüm yer tutur. Onun çəkdiyi dərvişlər həm xarakterinə, həm də görünüşünə görə bir-birindən fərqlənir. Bu dərvişlərin arasında həm istedadlı ifaçı, həm müdrik yoxsul, həm də fəndgir ovsunçu görmək olar. Bu obrazların əksəriyyətini o, 2000-ci illərdə çəkib. *"Dünyaya baxışının kifayət qədər fərqləndiyi 2000-ci illərin ortalarında Zakir Hüseynov pərəstişkarlarını onların bəlkə də gözləmədikləri bir mövzu ilə qarşılaşdırdı. Onun 2005-2007-ci illərdə yaratdığı "Dərvişlər" silsiləsi doğrudan da kifayət qədər rəngarəng yaradıcılığında yeni bir səhifə oldu. Belə ki, bu əsərlərdə görüntüyə gətirilən obrazlar ilk növbədə məna-məzmun tutumuna görə əvvəlkilərdən fərqlənirdi".*[21]

---

[20] Aliyeva S.Q. Embodying problems of folklore motifs in contemporary national fine arts // - Bakı: İncəsənət və mədəniyyət problemləri – № 2 (80) – 2022. – s. 16-25.

[21] Əliyev, Z.A. Zakir Hüseynov. Tənha döyüşçü / Z.A.Əliyev. – Bakı: Letterpress. - 2011. – s. 108-109.

**İkinci bənd – "Təsviri sənətdə Qus-Qız (Qadın) ikiləşməsi. Mifik və real (quş) heyvan obrazlarının rəmzi məzmunu"** – rəmzi məzmunlu quş surətlərindən bəhs edir. Qeyd olunur ki, quş surəti Azərbaycan rəngkarlığında geniş yayılmışdır. Dərin məna qatlarında mifoloji yaddaş və folklor motivlərinə, nisbətən sadə anlamda məişət lövhələri ilə bağlı olan quş surətinə bir çox Azərbaycan rəssamı müraciət etmişdir. Səttar Bəhlulzadə, Toğrul Nərimanbəyov, Rasim Babayev, Arif Hüseynov, Xalidə Səfərova, Sara Manafova, Kamal Əhməd, Cavad Mircavadov, Siruz Mirzəzadə, Zakir Hüseynov, Vüqar Əli və bir çox başqalarının əsərlərində mifik-əsatiri, yaxud realist-məişət xarakterli quş obrazları görmək mümkündür.

Müasir Azərbaycan rəngkarlığında Quş-Qadın ikiləşməsi nisbətən az yayılsa da buna nümunələr tapmaq mümkündür. Bu baxımdan ən maraqlı nümunələri sağlığında sənəti layiqincə qiymətləndirilməmiş avanqardçı-rəssam Kamal Əhməd yaratmışdır. Quş obrazı ümumiyyətlə, Kamal Əhmədin əksər tabloları üçün xarakterikdir və rəmzi məna daşıyır. Bununla yanaşı, rəssam bu obrazı inkişaf etdirmiş, ona yeni məna çalarları qatmış, Quş-Qadın ikiləşməsini ərsəyə gətirə bilmişdir. Quşu ideal qadın surətində əks etdirmək Kamal Əhmədin yaradıcılığındakı avanqard-mistik tutumun başlıca estetik tapıntılarından biri hesab oluna bilər.

Siruz Mirzəzadənin bəzi əsərlərində şanapipiklə insan (qadın) surəti arasında magik əlaqə vardır. Rəssam sanki bu iki surəti bir-birinə bağlamağa cəhd edir və sonda buna nail olur. Belə ki, onun bir sıra rəsmlərində şanapipik qadınla eyni ölçüdə, həm də onu öpərkən təsvir olunur ("Şanapipiklə məhəbbət"). Bu bədii-mifoloji dəst-xəttin son transformasiya mərhələsini isə insanın (İlahi Qadın surətinin) quşla birləşərək bir obrazda bütövləşməsidir. Burada biz istər-istəməz Kamal Əhmədin Quş Qız obrazlarını yada salırıq.

Dissertasiyanın **III Fəsli "Müasir təsviri sənətdə vətənpərvərlik mövzusu və bədii obraz konsepsiyası"** – iki paraqrafdan ibarətdir. **"Müasir bədii obraz şəxsiyyət, mühit və təbiət müstəvisində"** adlı **birinci paraqrafda** bədii obraz problemi şəxsiyyət və təbiət fenomeni kontekstində nəzərdən keçirilir. Paraqraf dörd bəndi özündə birləşdirir. "**Portret dövlətçilik və milli-vətənpərvərlik rəmzi kimi"** – adlanan **birinci bənddə** vurğulanır ki, şəxsiyyət və onun bədii ifadə formaları təsviri sənətin əsas

mövzularından biridir. Bu mövzu əvvəllər də aktual olmuş və yaşadığımız müasir dövrdə də öz aktuallığını itirməmişdir. Əksinə, müasir dövrdə təsviri sənətdə şəxsiyyətin təcəssüm etdirilməsi problemi daha artıq aktuallıq kəsb etmişdir.

Heydər Əliyev surəti müasir Azərbaycan təsviri sənətində klassik ənənənin təcəssümüdür. Belə ki, rəssamlar bu obrazı bir ayda olaraq, akademik rəngkarlıq üslubunda, klassik sənət normalarına ciddi riayət etməklə kətan üzərində canlandırırlar. Bu mənada biz Heydər Əliyev obrazını müasir avanqard sənətin yayıldığı sənət məkanında klassik realizm prinsiplərinin etibarlı saxlanc mənbəyi, nümunəvi sənətin və həqiqi sənətkarlığın generatoru kimi dəyərləndirə bilərik.

Azərbaycan təsviri sənətində Heydər Əliyev tematikası aşağıdakı mövzularla əlaqədardır:

Tarixilik;
Vətənpərvərlik;
Azərbaycançılıq;
Dövlətçilik.

Heydər Əliyev obrazı unikal xüsusiyyətləri ilə seçilir. Zənnimizcə, onun əsas təsvir xüsusiyyətləri aşağıdakı keyfiyyətləri əks etdirir:

Qətiyyət;
Əzəmət;
Müdriklik;
Uzaqgörənlik;
Humanizm;
Nəciblik.

Bu siyahını daha da genişləndirmək olardı, lakin Ulu öndərin rəssamlarımız tərəfindən yaradılmış obrazları əsasən bu cəhətləri əks etdirir. Qeyd olunan bu cəhətlər həm mövzuya, həm də obraza aiddir.

Tahir Salahovun çəkdiyi Heydər Əliyev portretində dövlətçilik, azərbaycançılıq ideyaları güclüdür. Əsərdə Heydər Əliyev öz iş otağında, masa arxasında ayaq üstə durmuş vəziyyətdə təsvir olunub. Onun nüfuzedici nəzərləri tamaşaçıya dikilmişdir. Dövlət başçısının üzündə qətiyyətli, bir qədər qayğıkeş ifadə vardır. Kompozisiyanın sağ tərəfindəki açıq pəncərədən Bakı şəhərinin mənzərəsi görünür.

İstedadlı portret ustası Oqtay Sadıqzadə Heydər Əliyevin portretinin yaradıcısıdır. Rəssam ulu öndərin obrazını yaradıcılığına xas olan akademik portret janrı tərzində, klassik rəngkarlıq prinsipləri əsasında işləmişdir.

İkinci bənddə – "**Fərqli bədii üslubların inkişaf xüsusiyyətləri. Yaradıcı şəxsiyyət obrazları**" – obraz yaradıcı şəxsiyyət müstəvisində nəzərdən keçirilir. Obrazın təcəssümündə bədii üslubun böyük əhəmiyyəti vardır. Qeyd edilir ki, müstəqillik dövründə Azərbaycan incəsənətində daha çox aşağıdakı üslublar inkişaf etmişdir:

- realist üslub;
- folklor-miniatür üslubu;
- avanqardizm və abstraksionizm üslubları.

Qeyd etmək lazımdır ki, bu üslubların özləri də müxtəlif istiqamətlərə bölünür. Belə ki, avanqard sənətin müstəqillik illərində iki əsas istiqaməti formalaşıb:

- Klassik avanqard;
- Milli avanqard.

Milli avanqard sənəti forma, üslub və məzmun baxımından daha çox maraq doğurur. Milli avanqard sənəti dedikdə, Azərbaycanın xarakterik rəmz və nişanələrindən (Qobustan təsvirləri, Qız qalası, Atəşgah, həmçinin muğam üçlüyü elementləri, saz, tar, dəf, kamança, heyva, nar və s. təsvirləri, eləcə də "isti" kolorit) kompozisiyada istifadə olunmasını nəzərdə tuturuq. Əlbəttə, bu rəmzlər ənənəvi realist üslubda yox, bir qədər dəyişilmiş, xüsusi formaya salınmış şəkildə təqdim olunur ki, bu da ümumiyyətlə, avanqard sənətin xarakterik cəhətidir.

T.Salahovun müstəqillik dövrü portretləri arasında görkəmli violonçel ustası, iki dəfə Rusiya Dövlət Mükafatı laureatı Mstislav Rostropoviçin portreti xüsusilə seçilir. Q.Qarayevdən D.Şostakoviçin, ondan sonra isə M.Rostropoviçin bədii obrazına uzanan sənət yolu rəssamın bədii təkamülünün xüsusiyyətlərini izləməyə imkan verir. Q.Qarayevin portretində kompozisiya sadəliyinə, xətti quruluşa meyl edən sərt üslub D.Şostakoviçin portretində özünün kulminasiya nöqtəsinə qədəm qoydu. Q.Qarayevlə müqayisədə burada kompozisiya sadə, xətti yox, nisbətən mürəkkəb perspektiv quruluşuna malik idi. Lakin artıq detalların olmaması, iri, monoton

səthlər, soyuq rəng yaxmaları əsəri sərt üslubun ən yaddaqalan nümunələrindən birinə çevirdi.

Rostropoviçin portretini T.Nərimanbəyov da işləmişdir. T.Nərimanbəyov Rostropoviçin iki məşhur portretinin müəllifidir. Maraqlıdır ki, hər iki portret 1991-ci ildə çəkilib. Bu portretlərə ayrı-ayrılıqda nəzər salaq. Onlardan biri "M.Rostropoviç – dünya miqyaslı musiqiçi" adlanır. Həmin portretdə T.Nərimanbəyovun yaratdığı obraz daha çox dekorativ məzmuna malikdir. Bununla da o, T.Salahovun yaratdığı Rostropoviç obrazına xas olan artistizmdən uzaqlaşır.

**Üçüncü bənd – "Təsviri sənətdə təbiət obrazına klassik və yeni baxış"** adlanır ki, burada təbiət obrazı nəzərdən keçirilir. Məlum olduğu kimi, bədii obrazın maraqlı təcəssüm formalarından biri təbiət obrazıdır. Olduqca geniş ifadə formalarına malik təbiət obrazı çoxmüstəvili ideya-bədii məzmuna və məna-ifadə formalarına malikdir.

Təbiət obrazı təsviri sənətdə geniş yayılmışdır. Azərbaycan təsviri sənətində təbiət obrazının ayrı-ayrı elementlərinə hələ orta əsr dövrü Təbriz miniatürlərində rast gəlinir. Buradakı təbiət səhnələri süjetin daha qabarıq ifadə edilməsi üçün bədii motiv rolunu oynayırdı. Təbii ki, bu zaman mövzu və süjetlə əlaqədar müəyyən ovqat yaranırdı. Misal üçün, Soltan Məhəmmədin "Kitab oxuyan oğlan" miniatüründə arxa plandakı çiçəkləmiş ağac gəncliyin, gözəlliyin simvolu kimi dəyərləndirilir və lirik ovqat yaradır.

XX əsrdə mənzərə janrının inkişafı ilə Azərbaycan təsviri sənətində müxtəlif təbiət obrazları yaradılmağa başladı. Klassik Azərbaycan təbiət obrazına aşağıdakı xarakterik rəmzlər daxildir:

- dağlar;
- çöl, çəmən və meşələr;
- çaylar və çay vadiləri;
- göllər, axmazlar;
- dəniz.

Ağac (meşə) obrazı Azərbaycan təsviri sənətində geniş yayılmış simvollardan biridir. Mənzərə janrına müraciət edən rəssamlar – Səttar Bəhlulzadə, Mahmud Tağıyev, Baba Əliyev, Nəcəfqulu İsmayılov, Kamil Xanlarov, Əyyub Hüseynov, Gennadi Brijatyuk, Ənvər Əskərov və başqaları meşə-ağac assosiativ simvollaşmasının

dəyərli nümunələrini yaratmışlar. Müasir dövrdə bu ənənəni Salxab Məmmədov (rəngkarlıqda), Sakit Məmmədov, Siruz Mirzəzadə, Arif Əziz, Əşrəf Heybətov, Elşən Hacızadə, Əli İsmayıl və başqaları davam etdirirlər. Rəssamın dünyagörüşündən və bədii üslubundan asılı olaraq meşə-ağac assosiativ simvollaşması fərqli kompozisiya və psixoloji-emosional müstəvidə təqdim olunur.

**Dördüncü bənd - "Təsviri sənətdə Qarabağ mövzusu"** - müstəqilik dövrü təsviri sənətinin əsas mövzularından birini əks etdirir. Qarabağ mövzusu Azərbaycan incəsənətində hələ müstəqillikdən əvvəl – ötən əsrin 88-89-cu illərində formalaşmağa başlayıb. Lakin illər ərzində onun məzmunu əhəmiyyətli surətdə dəyişilmiş, bu mövzu bir sıra diqqəti cəlb edən nüanslar, yeni forma və məzmun xüsusiyyətləri əldə etmişdir. Cəsarətlə demək mümkündür ki, Qarabağ mövzusu müstəqillik dövrü Azərbaycan təsviri sənətində ən çox dəyişən, yeni məna çalarları kəsb edən aktual mövzulardan biridir. Bu, həm də əksər rəssamların, son illərdə isə həm də gənclərin böyük ruh yüksəkliyi ilə müraciət etdiyi mövzudur.

Qələbə mövzusu istedadlı rəssam Vüqar Əlinin bir çox tablolarında özünü büruzə verir. Onun 2020-ci ildə, böyük zəfər günlərində yaratdığı "Qələbə" tablosu sevinc və qəhrəmanlıq hislərini əks etdirir. Kompozisiyanın mərkəzində şahə qalxan ağ ata minmiş igid, qamətli və qalib Azərbaycan əsgəri əks olunmuşdur. O, üzünü yana çevirərək sol əlini yuxarı qaldırmış və barmaqlarını güclü yumruq şəklində bükmüşdür. Bu jest məşhur "Dəmir yumruq" ifadəsini yada salır. Kompozisiyanın fonu başdan-başa üçrəngli Azərbaycan bayrağının rənglərindən ibarətdir. Bu, bütöv bir bayraq olmayıb Azərbaycanın qələbəsini, onun bayrağına qalibiyyətin, zəfərin yaraşdığını vizual bədii ifadə formaları vasitəsilə əks etdirir.

**Üçüncü fəslin ikinci paraqrafı "Monumental sənətdə mədəni mühit, milli xarakter və vətənpərvərlik mövzularının təcəssümü"** adlanır. Paraqraf iki bəndə bölünür. **Birinci bənd – "Heykəltəraşlıqda dövlətçilik ideyaları bədii obraz kontekstində"** adlanır. Qeyd olunur ki, müasir Azərbaycan monumental sənətinin inkişafında ulu öndər Heydər Əliyevin bədii obrazının böyük əhəmiyyəti vardır. Heydər Əliyev şəxsiyyəti təsviri sənətdə obraz fenomenini prinsipcə yeni keyfiyyət mərhələsinə qaldırmışdır. Görkəmli heykəltəraşlar – Ömər Eldarov, Natiq Əliyev, Fuad

Salayev, Akif Əsgərov və başqaları onun surətini daş üzərində məharətlə canlandırmışlar.

Heydər Əliyevin əsas heykəllərindən biri Bakının mərkəzində, onun adını daşıyan sarayın qarşısındakı parkda ucalan heykəlidir (2004; memar İqor Voznesenski, heykəltəraşlar Salavat Şerbakov, Mixail Nogin). Rusiya Federasiyasının Azərbaycana hədiyyəsi olan bu heykəl Smolensk şəhərində hazırlanmış və Bakıya gətirilərək quraşdırılmışdır.

Heykəlin kompozisiyası sadə, xarakterik və əzəmətlidir. Heydər Əliyev xarakterik jestlə - sağ əlini qaldıraraq sanki insanları salamlayırmış kimi təsvir olunub. Heykəlin plastikası rəvanlığı və mütənasibliyi ilə seçilir. Tuncdan hazırlanmış heykəl qranit pyedestal üzərində ucaldılmışdır. Kompozisiyanın kolorit həllində ənənəvi açıq və tünd qəhvəyi rənglər üstündür.

Akademik Zərifə xanım Əliyevanın mükəmməl plastik surətləri Ömər Eldarov tərəfindən yaradılmışdır. "Elegiya", 6-cı mikrorayondakı Zərifə parkındakı heykəl qocaman tişə ustasının mükəmməl sənət nailiyyətlərindən hesab oluna bilər.

Ağ mərmərdən hazırlanmış "Elegiya" kompozisiyasında Zərifə xanımın xarakterinin bütün əsas cəhətləri - insani keyfiyyətləri, nəcibliyi, bir qadın olaraq zərifliyi, incə hərəkətləri olduqca dolğun əks olunub. Zərifə xanım Əliyevanın Fəxri Xiyabandakı qəbirüstü abidəsi də "Elegiya" heykəli əsasında hazırlanıb.

Zərifə xanım Əliyevanın 6-cı mikrorayondakı büstü onun insani keyfiyyətlərinin daha zəngin cizgilərini açıb göstərir. Bu heykəli "Elegiya"nın məntiqi davamı hesab etmək olar. Əgər "Elegiya"da Zərifə xanımın bir qadın olaraq zərifliyi bədən hərəkətlərinə (ümumi plastikasında, ayağını ayağının üstünə aşırmasındavə s.) əks olunursa, sözügedən büstdə həmin xüsusiyyətlər baxış, xəfif təbəssüm, səmimilik, ifadəli sima vasitəsilə reallaşdırılır.

Şairə Natəvanın monumental obrazları da diqqət çəkir. Müstəqillik dövründə Natəvanın maraqlı kompozisiya həllinə malik, zəngin plastik keyfiyyətləri ilə seçilən heykəlləri yaradılmışdır. Maraqlıdır ki, bu heykəllərin bir qicmi xarici ölkələrdə ucaldılıb. Bu, Azərbaycanın dünya miqyasında tanınmasının, onun beynəlxalq nüfuzunun möhkəmlənməsinin özünəməxsus göstəricisidir. Azərbaycan mədəniyyət xadimlərinin, o cümlədən Natəvanın

heykəllərinin xarici ölkələrdə qoyulması milli mədəniyyətimizi layiqincə təmsil və təbliğ edir.

2016-cı ildə Belçikanın Vaterloo şəhərinin mərkəzi parkında Natəvanın heykəli qoyuldu. Heykəlin müəllifi heykəltəraş İmran Mehdiyevdir. Tuncdan hazırlanmış heykəl altıbucaqlı mərmər altlıq üzərinə ucalır. Heykəl maraqlı kompozisiya həllinə malikdir. Onun ideya əsasını lirik-romantik və emosional duyğular təşkil edir. Natəvan qurşaqdan yuxarı, sanki bardaş quraraq oturmuş vəziyyətdə təsvir olunub. O başını dik tutmuş, bir qədər dalğın, qayğılı baxışlarını irəliyə dikmişdir. Onun əynində geniş büzməli tuman, qolları krujevalı kofta vardır. Obrazın bədii həllində milli geyim formalarına üstünlük verən heykəltəraş şairəni kəlağayıda təsvir edib. Natəvan sol əlində kağız bükməsi tutmuş, sağ əli ilə kəlağayısını sinəsində sıxmışdır. Kompozisiyanın arxa hissəsində iki çərçivə vardır; bu çərçivələr açılmış pəncərələri simvolizə edir. Müəllif həmin çərçivələrə uçan quşları xatırladan dəmir vərəqələr bərkitmişdir. Bunlar məcazi mənada Natəvan poeziyasının pərvazlanaraq səmada uçmasını, el-oba içində yayılmasını təcəssüm etdirir.

Naxçıvan şəhərinin mərkəzi parklarının birində, Təbriz mehmanxanasının yaxınlığında Dədə Qorqudun heykəli ucaldılıb (1999; heykəltəraşlar Hüseynqulu Əliyev, Elman Cəfərov). Tuncdan hazırlanmış, nisbətən kiçik ölçülü oturaq heykəl nahamar səthi olan açıq-boz rəngli mərmər postament üzərində qoyulmuşdur. Kompozisiyanın alt hissəsində onu çevrələyən və abidəyə daha möhtəşəm görkəm verən iri daş parçaları düzülmüşdür. Sol əlində qədim milli musiqi aləti – qopuz tutmuş Dədə Qorqudun sakit siması, aydın baxışları onun ruhən səbatlı, təmkinli olmasından, mənəvi dünyasının zənginliyindən xəbər verir.

**İkinci bənd "Mövzu və bədii obrazın çoxcəhətli inkişaf dinamikası"** adlanır. Qeyd edilir ki, müstəqillik dövründə mövzu və bədii obrazın inkişaf etdirilməsində bir çox Azərbaycan heykəltəraşı iştirak etmişdir. Ömər Eldarov, Natiq Əliyev, Salxab Məmmədov, Xanlar Əhmədov, Görüş Babayev, İmran Mehdiyev, Əli İbadullayev və başqalarının bu işdə xeyli xidməti olmuşdur. Belə tişə ustalarından biri də Xalq rəssamı, professor Fuad Salayevdir.

"Üns" teatrının qarşısında qoyulmuş "Aktrisa" heykəlində obrazın lirik əhvali-ruhiyyəsi üz ifadəsindən daha çox ifa zamanı

onun yana açılmış qolları vasitəsilə təcəssüm olunur. Heykəlin nahamar səthi eyni zamanda onun geyimini əks etdirir.

Rəmzi-abstrakt forma ilə yanaşı, F.Salayev həm də ənənəvi realizmə müraciət edir. Beləliklə, F.Salayevin bədii üslubu bir tərəfdən ənənəvi realizm (lirik məzmunun iştirakı ilə), digər tərəfdənsə rəmzi abstrakt formalarında inkişaf edir. Bu baxımdan onun yaradıcılığını hər iki formaya müraciət edən Xalq rəssamı Salxab Məmmədovun yaradıcılığı ilə müqayisə etmək olar.

**Nəticədə** aşağıdakı qənaətlər əldə edilmişdir:

- Müstəqillik dövründə Azərbaycan təsviri sənətində yeni mövzu və üslublar yaranmışdır;
- Obraz problemi təsviri sənətin bədii-fəlsəfi istiqamətdə inkişafında mühüm rol oynayır. Bədii obrazın təsviri sənətdə çoxplanlı təfsiri bədii-estetik məzmunun daha da zənginləşməsinə stimul vermişdir;
- Bədii obraz mövzu ilə dinamik əlaqədə inkişaf edir. Mövzu və obraz qarşılığı təsviri sənətdə novatorçu axtarışların müvəffəqiyyətlə nəticələnməsinin, yeni sənət meyarlarının təşəkkül tapmasının əsas şərtlərindən biridir;
- Bu mövzu və üslubların yaranması müstəqilik dövründə mənəvi-əxlaqi dəyərlərin dəyişməsi və yenilənməsi ilə əlaqədardır;
- Yeni üslublar əsasən iki istiqamətdə - milli abstraksiya və rəmzi-dekorativ səpkilərdə inkişaf edir;
- Müstəqillik dövründə milli-vətənpərvərlik tematikası xeyli inkişaf etmişdir;
- Qarabağ mövzusu müstəqillik dövrü təsviri sənətinin əsas mövzularından biri kimi çıxış edir;
- Müasir dövrdə Qarabağ mövzusunda yaradılmış əsərlərdə nikbin əhvali-ruhiyyə, qələbə əzmi özünü dolğun əks etdirir ki, bu da 44 günlük müharibədə əldə edilmiş zəfərlə əlaqədardır;
- Azərbaycan təsviri sənətində yeni mövzu və üslub axtarışları bu gün də davam etdirilir. Bu xüsusiyyət gənc rəssamların yaradıcılığında və dünyagörüşündə daha aydın əks olunur.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. Tahir Salahov-Robert Rauşenberq: fərqli üslublar, oxşar talelər // Mədəniyyət dünyası. ADMİU - XXXX buraxılış. Bakı, 2021 – s. 77-84.
2. Forms of embodiment of national avant-garde art in Zakir Huseynov painting // İncəsənət və mədəniyyət problemləri. – № 3 (77) – Bakı, 2021 - s. 28-38.
3. Xalq rəssamı Oqtay Sadıqzadənin yaradıcılığında portret janrı // Sənət Akademiyası. BXA - № 3 (15) Bakı, 2021 – s. 13-19.
4. National forms of interpretation of the city scape in modern Azerbaijan fine arts // İncəsənət və mədəniyyət problemləri / Beynəlxalq elmi jurnal – № 4 (78) – 2021. – s. 26-35.
5. Embodying problems of folklore motifs in contemporary national fine arts // İncəsənət və mədəniyyət problemləri. – № 2 (80) – Bakı, 2022 – s. 16-25.
6. Müstəqillik dövrü Azərbaycan rəssamlarının yaradıcılığında Nizami obrazı // Sənət Akademiyası. BXA - № 2 (17) – Bakı, 2022 – s. 66-77.
7. Azərbaycan təsviri sənətində Xurşidbanu Natəvanın bədii obrazının təcəssümü // Sənət Akademiyası. BXA - № 4 (19) – Bakı, 2022 – s. 52-59.
8. Портрет в творчестве Таира Салахова (период независимости) // Вестник Казанского государственного университета культуры и искусств. № 3 – Казань, 2022 – s. 53-59.
9. Xalq rəssamı Əşrəf Heybətovun Qarabağ mənzərələrində rəmz-işarə semantikası // Mədəni irsin qorunmasının aktual problemləri ("Şuşa ili"nə həsr olunmuş Beynəlxalq elmi-praktik konfrans) – Bakı, 2022 – s. 269-272.
10. Müasir Azərbaycan rəngkarlığında quş obrazı: mifik gerçəklikdən müasirliyə doğru və mif-folklor yaddaşının bədii mənalandırma problemi // ADMİU-nun Elmi Əsərləri. № 31. – Bakı, 2022 – s. 130-138.
11. Творчество художников Западного Азербайджана // Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyası. – cild 22 № 2. – Bakı, 2022 – s. 119-127.

12. Azərbaycan təsviri sənətində Novruz bayramı mövzusu (tematik mənayaranma paradiqmaları kontekstində) // Türkdilli xalqların Novruz adət-ənənələri (I Beynəlxalq konfrans) Azərbaycan Milli Konservatoriyasının nəzdində Sumqayıt Musiqi Kolleci – Sumqayıt – 2022. – s. 10-15.
13. Постмодернистский портрет в современном азербайджанском изобразительном искусстве // “Müasir informasiya məkanında turizmin dayanıqlı inkişafı və sosial-mədəni innovasiyalar” (ADMİU-nun 100 illiyinə həsr olunmuş respublika elmi-nəzəri konfrans) - Bakı, 2023 – s. 563-567.
14. Heydər Əliyevin portretlərində təbiət obrazının təcəssümü // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri (XXII Beynəlxalq elmi-praktiki konfrans). ADMİU. – Bakı, 2023 – s. 48-51.
15. Müasir Azərbaycan təsviri sənətində postmodernizm: narrativ və kreativliyin vizual təzahür formaları // III Uluslararası Balkanlar, Anadolu, Kafkasya ve Türkistan coğrafiyası sanat, kültür, tarih ve folklor konqresi / Sanat etkinlikleri (Beynəlxalq elmi konfrans) 24-26 oktyabr 2023-cü il, Aydın, Türkiye. – s. 515-518.
16. Xalq rəssamı Elmira Şahtaxtinskayanın yaradıcılığında ağaclar silsiləsi // Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu. (elmi-praktiki konfrans). AMEA. Bakı, 23 may 2024.
17. Xalq rəssamı Rasim Babayevin yaradıcılığında Azərbaycan nağıl personajı – div // Çocuk ve gençlik edebiyatı yazarları birliği / 11 Uluslararası çocuk ve gençlik edebiyatı sempozyumu. Türkiye, Ankara. 4-5 ekim 2024.
18. Azərbaycan təsviri sənətində Füzuli obrazının inkişaf dinamikası (lirik, fəlsəfi və faciəvi transformasiya müstəvisində) // Uluslararası Fuzûlî Sempozyumu. 9-10 Ekim 2024 Gazi Üniversitesi Gazi Eğitim Fakültesi. Türkiye, Ankara. 9-10 ekim 2024. (həmmüəlliflikdə).
19. Критика и анализ творчества Таира Салахова в советском и русском искусствоведении // Cənubi Qafqaz tədqiqatlari: Mövcud vəziyyət, problemlər və perspektivlər (Respublika elmi konfransı). AMEA Qafqazşünaslıq İnstitutu. Bakı, 23 oktyabr 2024.

Dissertasiyanın müdafiəsi 13 iyun 2025-ci il tarixində saat 11:00-da Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının bazasında qeydiyyat nömrəsi BED 2.34 Birdəfəlik dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya işi ilə Azərbaycan Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 may 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15 aprel 2025
Kağızın formatı: A5
Həcm: 39.018 işarə
Tiraj: 100